1.qxd 27.12.2017 14:57 Page 1



*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
Heydər Əliyev

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 23 (1016) | 26 dekabr 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı



## Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik etdi

Azərbaycan prezidenti İlham Əliyev dünya azərbaycanlılarını 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar təbrik edib.

Dövlət başçısının təbrikində deyilir:

"Əziz həmvətənlər! Hörmətli soydaşlar! Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram. Bayramınız mübarək olsun!".

## Yeni iliniz mübarək, əziz ağstafalılar!

***Doğma Azərbaycanımızda il-ildən xoş gəlir. Yola salmağa hazırlaşdığımız 2017-ci il ölkəmizin tarixinə şərəfli bir səhifə kimi yazılır. Əvvəlki illərdə olduğu kimi 2017-ci ildə də Ulu Öndər Heydər Əliyevin siyasi kursu bu il də möhtərəm prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilmişdir.***

2017-ci il ölkəmizin hər yerində olduğu kimi doğma Ağstafamız üçün də çox uğurlu və yaddaqalan illərdən biri olmuşdur. Bu il rayondatikinti-abadlıq işləri yüksək templə davam etdirilmiş, rayonun inkişaf xəritəsinə yeni ünvanlar yazılmışdır. Rayon ərazisində4 ədəd körpü inşa olunmuş, Tatlı, Köçəsgər, Aşağı Kəsəmən, Zəlimxan kəndlərinə çəkilən yeni asfalt yollar, mənfur qonşularımızla həmsərhəd olan Köhnə Qışlaq kəndində tikilən 2 mərtəbəli yeni məktəb binası, Ağstafa şəhərində 3 nömrəli tam orta məktəbin yenidən qurularaq istifadəyə verilməsi yola saldığımız ilin ən böyük uğurlarındandır. Ağstafada yeni tikilən Xalçaçılıq fabriki, respublikada bənzəri olmayan möhtəşəm Musiqi Mərkəzi, tikintisi başa çatmaqda olan və şəhərimizin görkəmini tamamilə dəyişən Yeni Aqro Servis Mərkəzi, nəhəng taxıl və un məmulatı kombinatı və eləcə də digər yeni obyektlər 2017-ci ilin şanlı səhifələrində xüsusi yer alıb.

Hər bir ailə üçün ən vacib məsələ olan mavi yanacaq problemi rayonumuzda demək olar ki, tamamilə həll olunmuş, əhalinin içməli su təminatının yaxşılaşdırılmasının yeni layihəsinə artıq başlanılmışdır. Ötən ilin uğurları hamımızın qəlbində iftixar hissi doğurur. Respublika prezidenti cənab İlham Əliyevin təşəbbüsü, qayğısı və diqqəti sayəsində rayonumuz ölkənin qərb bölgəsində ən gözəl bir məkana çevirilməkdədir. Əminliklə və inamla deyə bilərəm ki, üzümüzə gələn 2018-ci ildə ölkənin hər yerində olduğu kimi Ağstafamızda da sürətli inkişaf planlı şəkildə uğurla davam etdiriləcəkdir. Yeni ildə bizi daha böyük layihələr, daha möhtəşəm işlər gözləyir. Həmişə olduğu kimi yeni ildə biz əl-ələ verib var qüvvə ilə çalışacaq, möhtərəm prezidentimizin bölgəmizə göstərdiyi diqqət və qayğıya əməli işimizlə və daimi dəstəyimizlə cavab verəcəyik. Və mən böyük inam hissi ilə demək istəyirəm ki, 2017-ci ildə rayonumuzda qazanılan böyük qələbələrdə bütün ağstafalıların əməyi olmuşdur. Bütün bunlara görə elini, obasını sevən, rayonumuzun çiçəklənməsi üçün var qüvvə ilə çalışan hər bir ağstafalıya öz dərin minnətdarlığımı bildirirəm.

Əziz ağstafalılar! Artıq Yeni il evlərimizin astanasındadır. Bütün xalqımız kimi, ağstafalılar da Dünya Azərbaycanlılarının Həmrəylik gününü, Yeni ili üzü ağ, böyük sevinc və şadlıq hissi ilə qarşılıyırlar. Bu əziz bayram günlərində Rayon icra hakimiyyəti aparatının işçiləri adından və şəxsən öz adımdan sizləri ürəkdən təbrik edir, hamınıza əminamanlıq, möhkəm can sağlığı və ailə səadəti arzulayıram. Qoy həmişə qismətiniz sevinc və qələbə olsun!

Yeni iliniz mübarək!

***Məhərrəm Quliyev***
***Rayon İcra Hakimiyyətinin başçısı.***

1.qxd 27.12.2017 14:57 Page 2





# Regional bilik evi açıldı

***Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun növbəti Bilik Evi Ağstafa rayonunda açıldı. Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Heydər Əliyev Mərkəzində fəaliyyət göstərəcək Regional Bilik Evinin açılış mərasimindən öncə Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Bilik Fondunun icraçı direktoru Oktay Səmədov digər tədbir iştirakçıları ilə birlikdə Mərkəzin Önündə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etdilər.***



Yerli rəsmi qurumların təmsilçiləri, rayonun ağsaqqalları, ziyalıları və gənclərinin, müəllim və şagirdlərin iştirakı ilə Heydər Əliyev Mərkəzində keçirilən açılış mərasimini giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açdı. İcra başçısı bu əlamətdar gün münasibəti ilə bütün ağstafalıları səmimi qəlbdən təbrik etdi.

Tədbirdə çıxış edən Bilik Fondunun icraçı direktoru Oktay Səmədov rəhbərlik etdiyi qurumun əhalinin, xüsusilə də gənclərin elmi biliklərinin artırılması, milli-mənəvi dəyərlərin təbliği istiqamətindəki fəaliyyəti barədə geniş məruzə ilə çıxış edərək, Fondun "İslam Həmrəyliyi İli"ndə həyata keçirdiyi maarifləndirici layihələrdən danışıb, ölkənin müxtəlif bölgələrində Bilik evlərinin açılmasını maarifləndirmə istiqamətində atılan əhəmiyyətli addım kimi qiymətləndirdi.

Bilik Evinin Ağstafada fəaliyyətə başlamasına şərait yaratdığına görə, rayon rəhbərliyinə minnətdarlığını bildirən icraçı direktor Nardaran, İsmayıllı, Qax, Oğuz, Astara, Şəmkir, Ağdaş, Qarabağ Regional Bilik evlərinin fəaliyyətini xatırladaraq, bu maarifləndirmə ocaqlarının iş prinsipləri, hədəfləri, potensialları barədə məlumat verdi. Oktay Səmədov milli-mənəvi dəyərlərin qorunması və təbliği işində gəncləri fəal olmağa çağırıb, vətənə sevgi, dövlətə sədaqət, vətəndaşlara qayğı göstərməyin məhz milli-mənəvi dəyərlərə sadiqlikdən keçdiyini dedi.

Tədbirdə Ağstafa qəzetinin redaktoru İbrahim Əliyev, Zəlimxan kənd tam orta məktəbin direktoru Qalıb Qəfərov çıxış edərək Bilik evinin Ağstafada açılmasını yüksək qiymətləndirdi və bütün bunlara görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirdə Bilik Fondu ilə Ağstafa Bilik Mərkəzi arasında əməkdaşlıq barədə Niyyət sazişi imzalandı.




# "Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur" mövzusunda tədbir keçirildi



***Bu günlər Yeni Azərbyacan Partiyası Ağstafa rayon Təşkilatının inzibati binasında Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar "Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur" mövzusunda tədbir keçirilmişdi. Tədbir iştirakçıları Ulu Öndərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.***

Tədbiri giriş sözü ilə YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov açaraq ulu öndər Heydər Əliyevin keçdiyi mənalı ömür yolundan və fəaliyyətindən geniş bəhs etdi. Məruzəçi Azərbaycan xalqının müdrik oğlu, qətiyyəti ilə heyranlıq doğuran, yenilməz iradə sahibi Heydər Əliyevin gənc, müstəqil dövlətimizi labüd fəlakətlərdən qurtardığını diqqətə çatdırdı. Məruzəçi ümummilli liderin xalq, Vətən, dövlət və dövlətçilik uğrunda əvəzsiz xidmətlərindən bəhs edərək qeyd etdi ki, Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı misilsiz xidmətləri yüz illər keçsə də unudulmayacaqdır.

Tədbirdə digər çıxış edənlər Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, ağsaqqal Fərhad Əliyev, rayon ictimaiyyətinin nümayəndələri Məmməd Məmmədov, Qəfər Məmmədov, Xəyalə Rüstəmova, Misir Həsənov, Gülgün Kərimov, Fatma Vəliyeva və başqaları çıxış edərək Heydər Əliyevin Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsindəki misilsiz xidmətlərini qeyd etdilər və ölkəmizdə iqtisadiyyatın, elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, idmanın inkişafının dahi liderin adı ilə bağlı olduğunu göstərildi.

***Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 N-li əmrinə əsasən 2018-ci ilin 1-ci rübündə vətəndaşların yaşayış və iş yerləri üzrə***

## QƏBUL CƏDVƏLİ

| Sıra N-si | Yaşayış və iş yeri | Qəbul günü | Qəbul saatı | Qəbulu aparan şəxsin vəzifəsi və soyadı |
|---|---|---|---|---|
| 1 | Ağstafa rayonu Qıraq Kəsəmən kəndi | 11 yanvar | 15:00 | Prokuror Aslan Surxayev |
| 2 | Ağstafa rayonu Köçəsgər kəndi | 26 yanvar | | Prokurorun böyük köməkçisi Emil Qurbanov |
| 3 | Ağstafa rayonu Düz Qışlaq kəndi | 9 fevral | | Prokuror köməkçisi Rəhim Hüseynli |
| 4 | Ağstafa rayonu Eynallı kəndi | 22 fevral | | Prokuror Aslan Surxayev |
| 5 | Ağstafa rayonu Sadıqlı kəndi | 15 mart | | Prokurorun böyük köməkçisi Emil Qurbanov |
| 6 | Ağstafa rayonu Poylu kəndi | 29 mart | | Prokuror köməkçisi Rəhim Hüseynli |

***Ağstafa rayon prokurorluğu***

# Növbəti tədbir Eynallı kəndində keçirildi

***"Ölkəmizin Nailiyyətləri" mövzusunda növbəti tədbir Eynallı kəndində keçirildi. Eynallı kənd tam orta məktəbinin akt zalında keçən tədbirdə Rayon İcra hakimiyyətinin məsul şəxsləri Ramiz İmanov, Müşfiq Hüseynov, "Ağstafa" qəzetinin baş redatoru İbrahim Əliyev, eləcə də kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.***

Tədbirdə respublikanın sürətli sosial-iqtisadi inkişafından, ölkəmizdə hökm sürən siyasi stabillikdən, Azərbaycan beynəlxalq arenadakı yüksək imicindən və əldə olunan nailiyyətlərimizdən geniş bəhs olundu. Qeyd olundu ki, son illər ölkəmizdə müşahidə edilən iqtisadi inişaf nəticəsində işsizliyin səviyyəsi xeyli azalmış, əhalinin maddi rifah halı yaxşılaşmışdır. Tədbir iştirakçılarına həmçinin ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq son illər Ağstafada görülmüş işlər və qarşıya qoyulan vəzifələr barədə ətraflı məlumat verilmişdir.

Tədbirdə kənd ictimaiyyətinin nümayəndələri Vidadi Hüseynov, Sevinc Ələsgərova, Abbas Əsgərov, Səhərnaz Əliyeva və Mövsüm Paşayev çıxış edərək ölkəmizin həm daxili və həm də xarici siyasətində əldə olunan böyük nailiyyətlərə görə qürur duyduiqlarını bildirdilər. Sakinlər kənddə təhlükə yaradan 4 ədəd iri qovaq ağacının kəsilməsinə, 2,1 km təsərrüfat daxili suvarma arxlarının təmizlənməsinə, yeni məhəllədə bir ədəd subartezian quyusunun təmir olunmasına, kənd əhalisinin içməli su ilə təmin edən kəhriz quyularında təmir işlərinin aparılmasına, ərazidə 6 ədəd yararsız elektrik dayağın yenilənməsinə və bir kilometrədək kəndarası yolların təmir olunmasına görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə etdilər. Kənd sakinləri rayonun bütün yaşayış məntəqələrində görülən bu cür işlərin məhz əhalinin sosial rifah halının yüksəlməsinə xidmət etdiyini vurğuladılar.

1.qxd 27.12.2017 14:58 Page 3



# Körpülər açıldı, məktəb binası, yollar istifadəyə verildi

*Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə rayonun ərazisində əsaslı təmir, yenidənqurma abadlıq işləri müvəffəqiyyətlə davam etdirilmişdir. Yola saldığımız 2017-ci ildə rayonda 8 min əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Ağstafa-Poylu-Düzqışlaq-Qazax yerli avtomobil yolları, cəbhə bölgəsində yerləşən 4 yaşayış məntəqəsini Vurğun qəsəbəsi ilə əlaqələndirən və uzunluğu 24 kilometr olan Vurğun-Köhnəqışlaq avtomobil yollarının*







*təmirində və yenidən qurulmasında işlər tam başa çatdırılmışdır. Vurğun qəsəbəsi, Həsənsu və Köçəsgər kəndlərini Ağstafa şəhəri ilə əlaqələndirən Ağstafa-Köçəsgər və həmin yaşayış məntəqələrini Qırlı kəndi ilə əlaqələndirən Eynallı-Qırlı avtomobil yollarında təmir işləri yekunlaşdırılmışdır.*

Azəravtoyol açıq səhimdar cəmiyyəti tərəfindən Ağstafa-Poylu-Gürcüstan dövlət sərhəddi avtomobil yolunda 3, Ağstafa-Poylu-Düzqışlaq-Qazax yerli avtomobil yolunun üzərində isə yeni avtomobil körpüsü tikilmiş və həmin körpülərin tikintisi bu günlərdə tam başa çatdırılmışdır.

Son illər rayonun təhsil sisteminin texniki bazasının möhkəmləndirilməsi sahəsində zəruri tədbirlər həyata keçirilsədə şəhər 3 saylı tam orta məktəbindəki vəziyyət ciddi narahatlıq doğururdu. Azərbaycan Respublikasının prezidenti cənab İlhamƏliyevin 21 oktyabr 2016-cı il tarixli sərəncamı ilə 1320 yerlik bu məktəbin yenidən qurulmasına vəsait ayrılmış və bu ilin əvvəlində həmin məktəbin yenidən qurulmasına başlanılmışdır. Rayon İcra Hakimiyyətinin ciddi nəzarəti altında aparılan işlər diqqət mərkəzində saxlanılmış və inşaatçıların gərgin əməyi sayəsində məktəbdə təmir-bərba işləri bu günlər tam yekunlaşdırılmışdır.

Yeni il ərəfəsində qeyd olunan yolların, körpülərin və 3 saylı tam orta məktəbin istifadəyə verilməsi münasibətilə geniş tədbirlər keçirilmişdir. Açılış mərasimlərində Rayon İcra Hakimiyyətinin başçısı görülən bütün bu işlərin hamısını Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin ağstafalılara göstərdiyi diqqət və qayğı kimi qiymətləndirmiş və bütün bunlara görə ölkə rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Tədbirdə rayon rəhbərliyi ictimaiyyət nümayəndələrilə müəllimlərlə, ağsaqqallarla səmimi söhbətlər aparmış və onlarla xatirə şəkilləri çəkdirmişdir.

***İ.Əliyev***





# Qərb bölgəsində alman izləri və tolerantlıq

***Multikulturalizm və tolerantlıq cəmiyyət üçün yeni məfhum olsa da, ölkəmizdə bu dəyərlərə min illərdir ki, hörmətlə yanaşılır. Dinindən, dilindən, etnik mənsubiyyətindənasılı olmayaraq, hamı qarşılıqlı anlaşma şəraitində yaşayır. Çoxmədəniyyətli ölkə olan Azərbaycanda zaman-zaman müxtəlif xalqların nümayəndələri məskunlaşıb.Ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşayan xalqlardan almanların adınıxüsusilə qeyd etmək lazımdır. XIX əsrin əvvəllərində Avropadan köç edərək Azərbaycanda məskunlaşan alman icması o dövrdə Azərbaycanın ictimai-mədəni və sosial-iqtisadi həyatında dərin izlər buraxıb. Yerli əhali ilə qaynayıb-qarışan almanlar,tolerant mühitdə yaşamaqla bərabər öz adət və ənənələrini də qoruyub saxlayıblar.***

Azərbaycanda ilk alman koloniyası 1819-cu ildə Göygöl şəhərində(Helenendorf) salınıb. Sonrakı illərdə Şəmkir, Qazax, Tovuz, Ağstafa rayonları ərazisində Annenfeld, Qeorqsfeld, Qrünfeld, Eyqenfeld, Traubenfeld - ümumilikdə 8 alman koloniyası yaranıb.

Tarixi mənbələrin məlumatına görə almanların Azərbaycanın Qərb bölgələrinə gəlişi ilebu yerlərin kənd həyatında böyük mədəni dəyişikliklər baş verdi.Sənayedə və kənd təsərrüfatında xüsusi təcrübəsi olan almanlar bu münbit torpaqlarda yeni həyata başlayıblar. Azərbaycanda üzümçülüyün və şərab sənayesinin inkişafında alman koloniyaçılarının müstəsna xidmətləri olub. Almaniyanın "Simens qardaşları" firması tərəfindən Gədəbəy ərazisində yerləşən mis yataqları bazasında iri misəritmə zavodları tikilmişdir.Bu zavodlarda istehsal edilən mis Cənubi Qafqazda əridilən misin 2/3 hissəsini təşkil edirdi. Bundan əlavə "Simens qardaşları" firması Daşkəsən ərazisində kobalt yataqları bazasında kobalt zavodu da inşa edib. Bütün bu güzəştlər və yaradılan şərait sonralar Azərbaycanda imkanlı alman kapitalistlərin meydana çıxmasına imkan yaratmışdı.Bu həm də onu göstərir ki, yerli əhali almanların fikirlərinə hörmətlə yanaşır və onların təcrübələrini yüksək qiymətləndirirdilər.

Azərbaycanda yaşayan almanlarının əksəriyyəti protestantlığa etiqad edirdilər. Ölkəmizdə ilk protestant kilsəsi 1857-ci ildə məhz Helenendorfda (indiki Göygöl rayonu) tikilmişdir.Sonralar lüteran kilsələr Gədəbəydə, Şamaxıda,Bakıda və Şəmkirdə tikilmişdi.Bu dini inanc yerlərinin inşasına yaradılan şərait o dövrdə yerli əhali ilə almanlar arasında dini və etnik baxımdan heç bir ayrı-seçkiliyin olmadığının bariz nümunəsidir.Almanların Azərbaycanda məskənləri bu gün də qalmaqdadır. İki dövlətin arasındakı mövcud tarixi dostluq ənənələrinin davam etdirilməsi nəticəsində onların Azərbaycandakı evləri, Bakı, Göygöl və Şəmkirdəki lüteran kilsələri və özlərinə məxsus memarlıq nümunələri olan tikililəri qorunub saxlanılır.Göygöl və Şəmkirdəki lüteran kilsələr bərpa olunaraq əvvəlki görkəminə qaytarılıb.Bu gün də şəhərin diqqət çəkən tikililərindəndir.

Almanlar Azərbaycanın siyasi və ictiami həyatında daim fəalrol oynayıblar.Azərbaycan Demokratik Respublikası parlamentinin IX Milli azlıqlar fraksiyası dörd üzvündən biri əslən alman olan Lorens Kun ollub. Lorens Kun 1884-cü ildə Yelenendorf(Göygöl şəhəri) şəhərində anadan olub və bir müddət burada fəaliyyət göstərib. 1918-ci ilin 7 dekabr tarixində AXC parlamenti öz işinə başlayanda Lorens Kunda parlamentə qoşularaq Azərbaycan almanlarının təmsil etmişdir.

İki xalq arasında mədəni və tarixi dostluğu indiyədək lentə alınan sənədli və bədii filmlər də təsdiq edir. "Uzaq Qafqaz ümidi - Azərbaycanda alman izləri" sənədli filmində bunun şahidi oluruq. Film Azərbaycanın "Salnamə" studiyası və Almaniyanın "Züdost" informasiya agentliyinin birgə istehsalıdır. Alman dilində hazırlanmış filmin rejissoru Mojkan Ehraridir. Alman-Azərbaycan Cəmiyyəti tərəfindən hazırlanmış "Azərbaycan-alman dostluq əlaqələri" sənədli filmində Drezdendə saxlanılan "Dədə Qorqud" eposunun əlyazması, Mirzə Şəfi Vazehin Fridrix Bodenştedtlə dostluğu, Leypsiq Kitabxanasında Azərbaycana dair kitablar, Berlin İncəsənət Muzeyində saxlanılan qədim musiqi alətləri və antik geyimlər lentə alınıb. Ekran əsərində almanların Azərbaycanda məskunlaşma tarixindən də bəhs edilir. Göstərilir ki, Azərbaycanda məskunlaşan alman icmalarına həmişə xüsusi qayğı göstərilmiş, onların mədəniyyətinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşılmışdır.

Xalq artisti, kinorejissor Oqtay Mir Qasımın "Qisas almadan ölmə. Keçmişdən məktublar" bədii filmi də Azərbaycan ərazisində yaşayan almanlardan bəhs edir. Film "didərginlik faciəsini yaşamış bütün insanlara ithaf olunur" sözləri ilə başlayır. Ekran əsəri Azərbaycanda yaşamış almanların 1941-ci ildə Orta Asiyaya sürgün olunmasından bəhs edir.

Ümumiyyətlə Azərbaycanda alman irsinin qorunması, təbliği üzrə müxtəlif tədbirlər təşkil olunur.Yola saldığımız 2017-ci ildə alman icmasının Cənubi Qafqazda, o cümlədən Azərbaycanda məskunlaşmasının 200 ili tamam oldu. Prezident İlham Əliyev 30 avqust 2016-cı il tarixdə "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" sərəncam imzalayıb. Sərəncamda alman məskənlərinin 200 illiyinin Azərbaycanın çoxəsrlik ənənələrə malik tolerantlıq məkanı kimi təbliğində önəmi və bu yubileyin qeyd olunmasının əhəmiyyəti vurğulanır.

***Sakit İskəndərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birinci kurs magistrantı***

1.qxd 27.12.2017 14:58 Page 4



## M.P.Vaqif-300

# Məktəbdə yubiley tədbiri



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə bu il görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi geniş qeyd olunmuşdur. Bu məqsədlə respublikanın hər guşəsində, mədəniyyət və incəsənət ocaqlarında, təhsil müəssisələrində silsilə yubiley tədbirlər keçirilmişdir. Rayonumuzda da M.P.Vaqifin 300 illiyi münasibətilə ədəbi-bədii gecələr, elmi konfranslar, yubiley təntənələri təşkil edilmişdir.***

Belə tədbirlərin davamı olaraq bu günlərdə A.Abdullayev adına Ağstafa şəhər 2 nömrəli tam orta məktəbində də klassik Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir. Məktəbin müəllim və şagirdləri, valideynləri, poeziya pərəstişkarları və ədəbiyyat sevərlər məktəbin akt zalına toplaşmışdılar. Səhnənin önündə düzəldilmiş sərgidə görkəmli şairin beytlərini əks etdirən şəkillər, onun barəsində söylənmiş fikirlər, müxtəlif illərdə çap olunmuş kitablar əksini tapmışdı.

Məktəbin VII"a" sinif şagirdlərinin hazırlıqları yubiley kompazisiyası şairin həyatından bəhs edən qısa filmin nümayişi ilə başladı. Sonra şagirdlərin ifasında şairin gözəllərə həsr etdiyi müxtəlif şeirlər səsləndi. Şagirdlərdən Süreyya Axundlu, Gövhər Məhərrəmova,Aysun İlyasova, Səidə Məmmədova, Şövkət Quluzadə və qeyriləri gözəlləmələri diqqətəlayiq ifa etdilər.

Görkəmli şairin şeirlərinə yazılmış mahnılar da maraqla qarşılandı. Sevinc Məmmədhüseynovanın oxuduğu "Sonalar kimi" və Nəzrin Muradovanın ifa etdiyi "Hayıf ki yoxdur" mahnıları zalda əyləşənlərin alqışları ilə qarşılandı. Sevimli xalq şairimiz Səməd Vurğunun "Vaqif" dramından Şah Qacarla Vaqifin qarşılaşdığı səhnə, M.P.Vidadi ilə M.P.Vaqifin deyişməsi də maraqlı oldu. Məktəbin şagirdləri İlkin Sarıyev və Xəlil İbrahimovun tədbir boyu söylənən şeirləri sazla müşayiət etmələrində xoşa gələn oldu.

Bundan əlavə mərasimə toplaşanlar M.P.Vaqifin Şuşa həyatından, şair dostu Molla Vəli Vidadi ilə görüşlərindən bəhs edən lentlərə də tamaşa etdilər.

Sonra mərasimə dəvət olunmuş qonaqlar yubiley tədbiri ilə əlaqədar öz fikirlərini bildirdilər.

Yubiley tədbirinin sonunda mərasim iştirakçıları xatirə şəkli çəkdirmişlər.

***El şənliklərində, bayram günlərində Mədəniyyət işçilərinin qayğıları daha da çoxalır. Çünki həmin tədbirlərin şən əhval-ruhiyyədə keçməsində mədəniyyət işçilərinin üzərinə daha böyük vəzifələr düşür. Belə el şənliklərindən biri də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramıdır. Bu bayram günlərində rayonun Mədəniyyət işçilərinin həyata keçirəcəkləri tədbirlər barədə oxucularımıza məlumat vermək üçün bu günlər Regional Mədəniyyət və Turizm idarəsinin rəisi Ramiz Quliyevlə görüşüb söhbət etdik. Ramiz müəllim gəlişimizin məqsədini bildikdən sonra suallarımızı cavablandıraraq dedi:***

# Şən əhval-ruhiyyə ilə

-Məlum məsələdir ki, bayram günlərində hamının diqqəti ən çox bizim keçirdiyimiz tədbirlərə yönəlir. Odur ki, biz çalışırıq ki, keçirdiyimiz tədbirlər yüksək səviyyədə olsun və rayon ictimaiyyəti bizdən razı qalsın. Əminəm ki, Yeni il ərəfəsində təşkil edəcəyimiz bayram şənlikləri yüksək səviyyədə olacaqdır.

Ilk növbədə onu deyə bilərəm ki, yeni il ərəfəsində Heydər Əliyev Mərkəzində rayonun bütün mədəniyyət işçilərinin ümumi yığıncağını keçirəcək, ötən dövrdə gördüyümüz işlərə yekun vuracaq və ötən müddətdə xüsusilə fərqlənən işçilərimizin əməyini qiymətləndirəcək, onlara fəxri fərmanlar, yeni il hədiyyələri təqdim edəcəyik. Bundan sonra bayram günlərində şəhərimizdə keçirilərək tədbirlərdə, konsert proqramlarında kimlərin harada çıxışlar edəcəkləri barədə göstərişlər verəcəyik. Əsas diqqətimizi S.Vurğun adına Mədəniyyət və İstirahət parkında quraşdırılmış yolka ətrafında təşkil olunacaq tədbirə yönəldəcəyik. Çünki bayram günlərində bu istirahət parkına gələnlər, Şaxta babaya baxanlar, onunla həmsöhbət olanlar daha çox olacaqdır.

Şəhər musiqi məktəbinin kollektivinin çıxışları daha maraqlı olacaqdır. Mən əminəm ki, bütün tədbirlərimiz ictimaiyyət tərəfindən rəğbətlə qarşılanacaq və hamıda yüksək bayram əhval-ruhiyyəsi yaradacaqdır.

Mən fürsətdən istifadə edərək rayonun bütün mədəniyyət işçiləri-ni 31 dekabr Həmrəylik günü və Yeni il münasibətilə təbrik edirəm.

**İ.Əliyev**

# Mənim musiqi dünyam

***Rayon Gənclər və İdman İdarəsi, Ağstafa şəhər 7 illik musiqi məktəbinin birgə təşkilatçılığı ilə rayonda istedadlı yeniyetmə və gənclərin üzə çıxarılması, eləcə də onların istedadlarının stimullaşdırılması məqsədi ilə "Mənim musiqili dünyam" devizi altında musiqi müsabiqəsi keçirilmişdir.***

Tədbirin təşkilatçılığına məsul şəxslər öz çıxışlarında qeyd etmişlər ki, Azərbaycan gəncliyinə dair tərtib olunmuş Dövlət Proqramlarının əsas məqsədlərindən biri cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şəraitin yaradılması, onların yaradıcılıq qabiliyyətlərinin və istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsindən ibarətdir. Bu sahədə Ağstafa rayonunda da mühüm tədbirlərin həyata keçirildiyini qeyd olundu, yeniyetmə və gənclərin fəaliyyət imkanlarının inkişaf etdirilməsi istiqamətində zəruri tədbirlər uğurla icra olunur.

Tədbirin rəsmi açılış mərasimindən sonra yeniyetmə və gənclər sazda, qarmonda, fortepianoda, tarda, nağarada, kamançada, muğam və vokal ifaçılığı nominasiyaları üzrə bacarıqlarını nümayiş etdirdilər. Münsiflər heyətinin yekun fikirləri əsasında qalib elan olunan yeniyetmə və gənclər müvafiq diplomlar və müxtəlif hədiyyələrlə təltif olundular. Rayonda bu cür müsabiqələrin davamlı olacağı qeyd olundu.



## Etibarsız sayılır

Aşağı Göycəli kənd sakini Qasımov Əli Qəmənderoğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair 403 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Həsənsu kənd sakini Məmmədov Xaliq Lətif oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN 610A nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa şəhər sakini Nağıyev Habil Abbas oğluna Qazax rayonundakı "N" saylı hərbi hissədən verilmiş hərbi şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Aşağı Kəsəmən kənd sakini Məhərrəmov İlham Əkbər oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-223A nöməli (kod: 50205018) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Köçəsgər kənd sakini mərhum Həsənov Kamal Alı oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair 577 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Bakı şəhərində yaşayan Kəriov Anar Mehman oğlunun Pirli kəndində olan Daşınmaz Əmlakın Dövlət Reester xidmətinin Tovuz Ərazi İdarəsi tərəfindən verilmiş AA000184 nömrəli (kod 502013000207) Torpaq sahəsinin plan və ölçüsünə dair sənəd itdiyi üçün etibarsız sayılır.

***

Köçvəlli kənd sakini İsmayılov Dursun Məhəmməd oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair 198 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

İsmayılov Dursun Məhəmməd oğluna məxsus AB120976 nömrəli B kateqoriyalı sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Doğum evində təmir işləri başa çatmaq üzrədir

***Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsinin inzibati binası aparılan əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmək üzrədir. 20 çarpayılıq doğum evinin inzibati binası ən müasir texnologiyaya əsaslanan səhiyyə avadanlıqları və cihazları ilə təchiz olunub. Burada ümumi havalandırma, mərkəzləşdirilmiş oksigen qazı sistemi quraşdırılmışdır ki, bunun da köməyi ilə istənilən vaxt hər bir otağı intensiv terapiya palatasına çevirmək mümkün olacaqdır. Eyni zamanda cərrahiyyə, anesteziologiya və reanimasiya şöbələri də fəaliyyət göstərəcəkdir.***

Cərrahiyyə otaqları elektron idarə olunan stollarla, narkoz aparatları ilə, eləcə də reanimasiya şöbəsi yüksək standartlara cavab verən süni tənəffüs aparatları və xəstəyə təcili yardım göstərmək üçün müvafiq cihazlarla təchiz ediləcəkdir. Tibb ocağında yeni doğulmuşların reanimasiya şöbəsi, intensiv terapiya palatası da yaradılmışdır. Həmçinin, burada fəaliyyət göstərəcək laboratoriyalarda da ən son texnoloji avadanlıqlar quraşdırılır. Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu günlər rayonun bir sıra məsul işçiləri ilə birlikdə növbəti dəfə burada aparılan işlərlə yaxından tanış olmuş, müvafiq tapşırıqlarını vermişdi.

# Yenidən qurulan İsa Hüseynov küçəsi abadlaşır

Rayonun sosial-iqtisadi inkişaf proqramına (2014-2018-ci illər) uyğun olaraq rayonda həyata keçirilən abadlıq-quruculuq uğurla davam etdirilir. Hazırda İsa Hüseynov və Rafiq Alıcanov küçəsi döngə 2-də və həmin ünvanda yerləşən şəhid ailələri və Qarabağ əlilləri üçün inşa olunmuş 4 mərtəbəli, 32 mənzilli yaşayış binasının ətrafında abadlıq işləri aparılır. Həmin küçələrdə asfalt-beton örtüyünün qoyulması işləri görülür və ysxın günlərdə həmin küçələrdə işlər tam yekunlaşdırılacaqdır. Küçədə avtomobil yolunun kənarları boyunca bardurlar düzülüb, sakinlərin rahat və təhlükəsiz hərəkət etmələri üçün yaradılmış piyada səkilərinə bruscatka tipli dekorativ daş düzülmüşdür, kommunikasiya xətləri səliqəyə salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Eyni zamanda ərazidə yerləşən çoxmənzilli yaşayış binasının həyətinə dekorativ döşəmə daş düzülüb, sakinlərin asudə vaxtlarının səmərəli keçirmələri üçün istirahət guşələri və uşaqların əyləmələri üçün müvafiq qurğulu oyun meydançaları yenidən qurulmuşdur.


BAŞ REDAKTOR: İBRAHİM ƏLİYEV

Həmtəsisçi: "Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000